**Əliyev Şakir Rüstəm oğlu**
**Azərbaycan Texnologiya Universiteti**
**Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının dosenti, t.f.d.**
**Email: shakiraliyev@atu.edu.az.**
**Tel: +994 50 429 80 00**

**Əliyeva Gülnarə Nurəddin qızı**
**Azərbaycan Texnologiya Universiteti**
**Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının baş müəllimi**
**Email: g.aliyeva@atu.edu.az**
**Tel: +994 51 355 95 67**

**Əliyeva Fərqanə İsfəndiyar qızı**
**Azərbaycan Texnologiya Universiteti**
**Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının baş müəllimi**
**Email: f.aliyeva@atu.edu.az**
**Tel: +994 50 533 14 51**

**Əsgərova Radə İsfəndiyar qızı**
**Azərbaycan Texnologiya Universiteti**
**Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının lab.müd.**
**Email: r.asgerova@uteca.edu.az**
**Tel: +994 55 466 38 60**

**Məmmədova Sevinc Rövşən qızı**
**Azərbaycan Texnologiya Universiteti**
**Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının assistenti**
**Email: memmdovasevinc04@gmail.com**
**Tel: +994 51 989 07 89**

***UOT 677.52***

# MODA SƏNƏTİNDƏ GEYİM DİZAYNININ TƏTBİQİ


## XÜLASƏ

Moda sənətində geyim dizaynı estetik və funksional tələbləri bir araya gətirən çoxşahəli bir sahədir. Geyim dizaynı yalnız vizual gözəllik yaratmır, həm də istifadəçinin rahatlığını təmin edir, mədəni və sosial mesajları ifadə edir. Moda sənayesində yüksək moda, kütləvi moda, ekoloji moda və innovasiya kimi müxtəlif tətbiq sahələri mövcuddur. Son illərdə davamlılıq və ekoloji yanaşmalar dizayn prosesində əsas yer tutmağa başlayıb. Rəqəmsal texnologiyalar və yeni materiallar geyim dizaynında innovasiyaların artmasına səbəb olur. Geyim dizaynı moda sənətinin inkişafında və davamlılığında həlledici rol oynayır.


***Açar sözlər:*** moda trendləri, innovasiya, estetik, tekstura, motiv.

Moda sənəti insan həyatında özünümüdafiə və social identifikasiya vasitəsi kimi böyük kəsb edir. Geyim dizaynı isə bu sənətin ən vacib elementlərindən biridir və həm estetik, həm funksional, həm də mədəni aspektləri özündə birləşdirir. Geyim dizaynının tətbiqi, yalnız gözəl görünüş yaratmaqla kifayətlənmir, eyni zamanda, istifadəçinin rahatlığı, istehsalın davamlılığı və social-mədəni kodların istifadəsini təmin edir. Məqalədə moda sənətində geyim dizaynının tətbiq sahələri, istifadə olunan metodlar, materiallar, innovasiyalar və davamlılıq mövzuları geniş şəkildə araşdırılıb.

Geyim dizaynı sənət və sənaye arasında körpü rolunu oynayan mühüm bir sahədir. O, insanların gündəlik həyatında funksional ehtiyaclarını ödəməklə yanaşı, onların estetik zövqünü və fərdi ifadə tərzini də əks etdirir. Moda dizaynerləri yalnız geyim yaradan ustalar deyil, həm də sosial dəyişikliklərin güzgüsüdürlər. Onlar dövrün ruhunu tutaraq geyim vasitəsilə yeni fikirlər və üslublar təqdim edir, ictimai şüuru formalaşdırırlar.

Bu sahədə tətbiq olunan metodlar zamanla dəyişmiş, texnologiyanın və sosial dəyərlərin inkişafı ilə yeni istiqamətlər qazanmışdır.

Xüsusilə, XXI-ci əsrdə rəqəmsal alətlərin və davamlı dizayn prinsipinin modaya daxil olması geyim dizaynının həm konseptual, həm də texnoloji çərçivəsini genişləndirmişdir. Beləliklə, geyim dizaynı təkcə modaya xidmət edən bir vasitə deyil, həm də cəmiyyətin, ekologiyanın və texnologiyanın birgə məhsulu kimi dəyərləndirilir.

Mövzunun aktuallığı: Geyim dizaynı, moda sənətinin təməlini təşkil edir. O, rəng forma, tekstura, kəsim, material seçimi və funksionallıq kimi əsas elementləri bir araya gətirərək geyimlərin həm vizual, həm də praktik dəyərini artırır. Dizaynerlər bu elementləri uyğun şəkildə birləşdirərək, fərqli social qrupların tələblərinə, mövsüm şəraitinə və mədəni xüsusiyyətlərə cavab verən kolleksiyalar yaradırlar.

Geyim dizaynı eyni zamanda mədəniyyət və ənənələrin qorunması və yenidən ifadə olunması üçün bir vasitədir. Hər bir dövr və regionun geyim tərzi social və mədəni kontekstlə sıx bağlıdır. Məsələn, milli motivlərin müasir dizayn elementləri ilə birləşdirilməsi, həm milli kimliyin yaşadılmasına, həm də qlobal modaya inteqrasiya olunmasına şərait yaradır.

Yüksək moda sənəti dizaynerlərin yaradıcılıq sərhədlərini genişləndirməyi, incə detallı və əl işlərinin üstünlük təşkil etdiyi sahədir. Burada geyim dizaynı estetikaya üstünlük verir və hər bir parça sənət əsəri kimi qiymətləndirilir. Yüksək modada istifadə olunan materiallar çox vaxt nadir və bahalı olur, dizaynlar isə trend yaradıcıdır.

Kütləvi moda daha geniş istifadəçi kütləsinə yönəlmiş, praktik və funksional geyimlərdən ibarətdir. Burada dizayn funksionallıqla birlikdə istehsalın səmərəliliyi və bazar tələbinə uyğunluq ön plandadır.

Moda sənayesi dünyada ətraf mühitə ən çox təsir edən sahələrdən biridir. Buna görə də, ekoloji moda və davamlılıq mövzuları son illərdə moda dizaynında əsas prioritetlərdən biri halına gəlib.

Geyim dizaynında estetik görünüş istifadəçinin visual zövqünü ödəyir, social status və şəxsiyyət ifadəsini gücləndirir. Funksionallıq isə geyimin rahat, davamlı və istifadəyə yararlı olmasını təmin edir.

Moda dizaynı bəzən sadəcə gözəllik və zövq deyil, həm də ideoloji bir bəyanatdır. Tarix boyu feminist hərəkatlar, sosial bərabərlik irs və etnik müxtəliflik mövzuları geyimlər üzərindən ifadə edilmişdir. Buna nümunə olaraq, XX əsrin ortalarında qadın kostyumunun strukturlaşdırılması qadının cəmiyyətə inteqrasiyasının simvolu kimi qəbul edilirdi. Bu günki dövrdə isə gender neytral geyimlər sosial dəyişimin bir əks sədasıdır. Bu da göstərir ki, geyim dizaynı yalnız vizual deyil, həm də ideoloji məna daşıyan bir sənət növüdür.

Moda sənayesində geyim dizaynının strateji rolu çox genişdir. Moda sənayesi dünya iqtisadiyyatında milyardlarla dollar dövriyyəsi olan bir sahədir. Bu sənayenin əsasında isə məhsulun dizayn mərhələsi dayanır. Dizaynın keyfiyyəti və yenilikçiliyi bir moda brendinin uğurunu müəyyən edən əsas amillərdəndir.

Moda sənətində geyim dizaynının rolu təkcə estetik və ideoloji ifadə ilə məhdudlaşmır. Texnologiyanın sürətli inkişafı ilə dizayn prosesi daha da innovativ və rəqəmsal hal alıb.

Geyim dizaynı moda sənətinin sadəcə bir sahəsi deyil, onun bədii, sosial və texnoloji əsasını təşkil edən strateji bir sahədir. O cəmiyyətin zövqünü, dəyərlərini və həyat tərzini formalaşdırmaqda mühüm vasitəyə çevrilmişdir. Geyim dizaynı həm sənət, həm sənaye, həm də sosial təzahür kimi moda sənətində əvəz olunmaz yer tutur və sahədəki yeniliklər modanın gələcəyini formalaşdırır.

Moda sənəti yalnız parça və tikişdən ibarət deyil. O, insan bədəninə dil açan hekayə danışan, duyğu ötürən canlı bir orqanizmdir.

Geyim dizaynı moda sənətinin yalnız görünən gözəlliyini yaratmır, həm də daxili dünyanı əks etdirir. Hər tikiş, hər kəsim, hər rəng, bir söz, bir cümlədir. Geyim dizayneri hər detail ustalıqla seçir və bunu vasitəsilə bədənin üzərində görünməz bir gözəllik yaradır.

Moda sənətində geyim dizaynı canlı sənət əsəridir. Hərəkət edən heykəl, nəfəs alan rəsm kimi. O, bədənin formalarını əhatə edir, ona yeni anlamlar verir və hər addımda dünyaya öz dilində danışır.

Geyim dizaynı vasitəsilə moda sənəti fikirlərini sərbəst buraxır. Hər bir kolleksiya düşüncələrin əksidir.

Moda sənəti sözlərlə ifadə olunmayanı danışır, geyim dizaynı isə bunu mümkün edir. O, ideyanı formaya çevirir, xəyalı reallığa gətirir və bədəni yeni dünyalara aparır. Geyim dizaynı olmadan moda sənəti – rəngsiz xəyaldır, səssiz musiqidir, işıqsız rəsm əsəridir.

Geyim dizaynı təkcə bir anlıq gözəllik üçün deyil, o bir sənət formasıdır. Hər geyim bir dövrün aynası, bir epoxanın nəfəsidir. Moda sənətində geyim, keçmişlə gələcəyi bir anda birləşdirən vizual körpüdür.

Tarixin qədim ipəkləri, xalçaların rəngləri, xalq geyimlərinin simvolları – bunlar geyim dizaynında bird aha doğulur.

Moda sənətində geyim dizaynı yalnız fiziki örtük deyil – daxili aləmin vizual ifadəsidir. Qəzəb bəzən qara bir palto olur. Sevinc çiçək naxışlı ipək. Üsyan – yırtılmış geyim.

Tənha düşüncələr isə bəlkə də sadə, düyməsiz bir donun içində gizlənir.

Moda sənətində dizaynerin "kətanı"- insan bədənidir. Geyim bu bədənə toxunduqca onunla harmoniya yaradır, onunla hərəkət edir, onun ritmini duyur. Bu qarşılıqlı münasibət incəlik və balans tələb edir.

Moda sənəti ideyanı doğurur. Geyim dizaynı onu yaşadır. Biri göydən gələn ilhamdır, o biri yerdə onu həyata keçirən əldir. Moda sənəti sərbəstdir, deyə bilər. "Mən hiss edirəm". Geyim dizaynı isə cavab verir.

Moda sənətində geyim dizaynı – sözsüz danışan manifestdir. Hər bir parçanın qırışında, hər tikişin istiqamətində bir fikir yatır. O fikir sənətin bədənə toxunuşudur. Geyim dizaynı o toxunuşu mümkün edir. Moda sənəti və geyim dizaynı arasındakı əlaqə bu gün daha actual və vacibdir. Geyim artıq yalnız gündəlik ehtiyac deyil, həm də estetik, social və texnoloji ifadə formasıdır. Moda sənətində geyim dizaynı rəsm, heykəltəraşlıq və memarlıq qədər estetik bir sənət sahəsi kimi qəbul olunur. Geyim dizaynı bir cəmiyyətin mədəni, tarixi və sosial kodlarını əks etdirir. Geyim dizaynı rəqəmsal sənətlə birləşərək interativ moda sənətinə çevrilir.

- 3D dizaynlar, ağıllı tekstil, LED işıqla dəyişən paltarlar;
- Rəqəmsal performans sənətində geyimlər real vaxtda forma dəyişə bilir.

*Geyim dizaynı bu gün.*

- Yaradıcılığın sərhədsiz platformasıdır;
- İnnovasiyanın və texnologiyanın təzahür nöqtəsidir;
- Mədəni, sosial və fəlsəfi məsələlərə cavab verən sənət dilidir.

Geyim dizaynı əvvəllər daha çox utilitar funksiyanı yerinə yetirirdisə, müasir dövrdə bu funksiyalara estetik, fəlsəfi və sosial komponentlər də əlavə olunub. Geyim həm fərdin, həm də toplumun kimliyini əks etdirən kulturoloji koddur. Etnik ornamentlər, yerli tekstil texnikaları və milli geyim ünsürləri müasir geyim dizaynında yenidən işlənir.

Bu yanaşma həm milli mədəniyyətin qorunmasına, həm də onun qlobal platformada tanıdılıma xidmət edir. Texnologiyanın inkişafı ilə geyim dizaynı tamamilə yeni bir mərhələyə keçmişdir. Bu sahə artıq inter-disiplinar bir məzmuna sahibdir: moda - mühəndislik – rəqəmsal – sənət – biotexnologiya.

Moda artıq rəqəmsal aləmə keçid edir: metaverse, avatarlar üçün geyimlər. NFT geyimlər, yalnız virtual mühitdə istifadə edilən, unikal və qeyri – fiziki "paltarlar" kimi təqdim olunur.

Moda sənəti və geyim dizaynı sosial məsələlərə dair dialoq yaratmaq üçün istifadə olunan bədii vasitəyə çevrilmişdir.

a) Gender bərabərlik.
- Gender neytral geyimlər qadın və kişi geyimi arasındakı sərhədləri məhv edir;
- Bu cəmiyyətə gender bərabərliyi və sərbəst identifikasiya mesajı vrir.

b) Feminis moda
- Dior-un "We Should All Be Feminist" yazılı t – shitləri sosial şüurunu və dizaynın necə birləşə biləcəyinə nümunədir.

c) İqlim dəyişikliyi və ekologiya.

Geyim dizaynı artıq fövqəladə hallara uyğun modifikasiyaya sahib ola bilər. Adaptiv geyimlər, hava şəraitinə uyğun özünü dəyişən materiallar. Geyim dizaynında gələcəyin meqatrendləri çoxşaxəlidir.

*Transhumanist moda: Geyimin insan bədəni ilə inteqrasiyası.*

Transfumanizm – texnologiya vasitəsilə insan bacarıqlarını artırmaq ideyası geyim dizaynında da təzahür tapır. Geyimlər tədricən bədənin bir uzantısına çevrilir və onun funksiyalarını artırır.Bu baxımdan – Exosuit geyilən robotik strukturlar əzələləri gücləndirir,

Bioseusorlu geyimlər – duyğulara reaksiya verir, Dəri ilə sinxronlaşan tekstil – bənin hərəkətinə uyğun formalaşır, “canlı parça” təsiri yaradır.

Geyim dizaynı və moda sənətinin sərhədsizliyi dedikdə o anlama gəlinir ki, geyim dizaynı artıq fiziki məkana bağlı deyil.

Moda dizaynı nə toxunulmalı, nə deyilməli, hətta nə də satılmalı deyil. Moda dizaynı interaktiv rəqəmsal sənət formatına çevrilir. Moda artıq analoq təcrübədən çox interaktiv estetikaya keçid edir.

Geyim dizaynı moda sənətinin sərhədlərini aşaraq: Texnologiya ilə sintez olunur (rəqəmsal platformalar), insan təcrübəsini genişləndiorir (interaktiv geyimlər), yeni sənət və etik istehsala yönəlir (təkrar emal olunan materiallar).

Gələcəkdə moda insan dəyişəcək, yoxsa insan modanı fikrinə demək olar ki, insan və moda bir-birini paralel şəkildə dəyişdirir – lakin gələcək kontekstində bu münasibət daha çox modanın üstünlüyü ilə formalaşa bilər.

- İndiyədək insan modanı dəyişib – yaradıcılıq və mədəniyyət vasitəsilə;
- Gələcəkdə moda insanı dəyişəcək – texnologiyanın gücü ilə;
- İkili proses baş verir, amma güc mərkəzi dəyişir; yəni əvvəl insan dizayn edirdi, indi isə moda alqoritmlər və texnologiya vasitəsilə insanı dizayn edir.

Gələcəkdə insan modanı deyil, moda insanı dəyişdirəcək. Amma bu dəyişiklik təkcə bədəni deyil – kimliyi, estetik duyğunu və hətta insanın özünü dərk etməsini də əhatə edəcək.

*Moda insanın mahiyyətini necə dəyişir?*

Ontologiya – varlığın təbiətini və mənasını öyrənən fəlsəfə sahəsidir. Burada bir sual yaranır.

*Moda bizi kimə və ya nəyə çevirir?*

Keçmişdə moda sadəcə bədənə əlavə edilən bir obyekt idi.

İnsan geyimi seçirdi, dəyişirdi, çıxarırdı – yəni nəzarət insanda idi.

Gələcəkdə moda artıq bədənlə firləşən forma alır (Bioseusorlar, dəriyə birləşmiş geyimlər, “canlı parça” texnologiyalar). Yeni moda artıq özümüz haqqında təcrübəmizi, bədənimizlə münasibətimizi dəyişir. Bu artıq təkcə “nə geyinirəm” sualı deyil, “mən kiməm” sualıdır.

Moda artıq həyat  tərzi deyil-varlıq formasına çevrilir. Geyim dizaynı olmadan nə moda sənayesi inkişaf edə bilər, nə də sənaye insanla estetik, mədəni və texnoloji bağ qura

bilər. Moda sənayesində dizaynın gələcəyi, sintez, sürət və şüurluluq prinsipləri əsasında inkişaf edəcək.

Sintez – texnologiya, təbiət və incəsənətin inteqrasiyası. Dizayn artıq moda ilə bio-texnologiyanın, Aİ – nin və vizual sənətin birləşdiyi bir məkana çevriləcək.

Sənət – lakin qeyri – idtehlakçı yönümlü .

Ənənəvi "fast fashion" modelindən fərqli olaraq, sürətli yaradıcılıq, lakin etik və davamlı hasilat modeli önə çıxacaq.

Şüurluluq – sosial, ekoloji və mədəni məsuliyyət – Dizaynerlər yalnız gözəllik deyil, həm də cəmiyyətin problemlərinə cavab axtaran yaradıcılar olmalıdırlar.

Moda sənayesində geyim dizaynı təkcə moda sənayesinin ürəyi deyil, həm də onun gələcəyini müəyyən edən zehniyyət mərkəzidir.

Nəticə etibarı ilə, geyim dizaynı moda sənayesinin əsas sütunu olmaqla, bu sahənin estetik, texnoloji, sosial və iqtisadi istiqamətlərini formalaşdıran mərkəzi funksiyanı daşıyır. Geyim dizaynı yalnız zahiri görünüşün formalaşdırılması deyil, eyni zamanda mədəni kimliyin ifadəsi, texnologiyanın tətbiq sahəsi, istehlakçı davranışlarının yönəldirilməsi və etik dəyərlərin sənayedə təzahürüdür.

Müasir dövrdə süni intellekt, rəqəmsal dizayn proqramları və davamlılıq prinsiplərinin tətbiqi ilə geyim dizaynı sənayenin inkişafında yenilikçi və strateji bir gücə çevrilmişdir.

Yerli dizaynların inkişafı, milli ornamentlərin və tekstil irsinin müasir dizayna inteqrasiyası, Azərbaycan da daxil olmaqla bir çox ölkələr üçün mədəni diplomatiya və iqtisadi inkişaf vasitəsinə çevrilə bilər. Bu səbəbdən geyim dizaynı yalnız moda sənayesində deyil həm də qlobal sosial və iqtisadi sistemdə mühüm yer tutur.

Beləliklə, geyim dizaynı gələcək moda sənayesinin yaradıcı mühərriki, etik kompası və texnoloji katalizatoru kimi çıxış edəcək.

**Aliyev Shakir Rustam**
**Azerbaijan Technological University**
**Associate Professor of the Department of Light Industry Engineering and Design, Ph.D.**
**Email: shakiraliyev@atu.edu.az.**
**Contact phone: +994 50 429 80 00**

**Aliyeva Gulnara Nuraddin**
**Azerbaijan Technological University**

**Senior Lecturer, Department of Light Industry Engineering and Design**
**Email: g.aliyeva@atu.edu.az**
**Contact phone: +994 51 355 95 67**

**Aliyeva Fargana Isfandiyar**
**Azerbaijan Technological University**
**Senior Lecturer, Department of Light Industry Engineering and Design**
**Email: f.aliyeva@atu.edu.az**
**Contact phone: +994 50 533 14 51**

**Askerova Rada Isfandiyar**
**Azerbaijan Technological University**
**Head of Laboratory, Department of Light Industry Engineering and Design**
**Email: r.asgerova@uteca.edu.az**
**Contact phone: +994 55 466 38 60**

**Mammadova Sevindzh Rovshan**
**Azerbaijan Technological University**
**Assistant of the Department, Engineering and Design of Light Industry**
**Email: memmdovasevinc04@gmail.com**
**Contact phone: +994 51 989 07 89**

***UOT 677.52***

## APPLICATION OF FASHION DESIGN IN THE ART OF FASHION

### SUMMARY

Fashion design in the art of fashion is a multifaceted field that combines aesthetic and functional requirements. Fashion design not only creates visual beauty but also provides comfort to the user by expressing cultural and social messages. The fashion industry has various applications such as haute couture, mass fashion, eco fashion and innovation. In recent years, sustainability and environmental approaches have become central to the design process. Digital technologies and new materials are fuelling the growth of innovation in fashion design. Fashion design plays a crucial role in the development and sustainability of the art of fashion.

***Keywords***: fashion trends, innovation, aesthetics, texture, motif.

**Алиев Шакир Рустам оглы**
**Азербайджанский Технологический Университет**
**Доцент кафедры, Инженерии и дизайна легкой промышленности, д.ф.тех.**
**Email: shakiraliyev@atu.edu.az.**

**ТЕЛ:  +994 50 429 80 00**

**Алиева Гульнара Нуреддин кызы**
**Азербайджанский Технологический Университет**
**Старший преподаватель кафедры, Инженерии и дизайна легкой промышленности**
**Email: g.aliyeva@atu.edu.az**
**ТЕЛ: +994 51 355 95 67**

**Алиева Фаргана Исфандияр кызы**
**Азербайджанский Технологический Университет**
**Старший преподаватель кафедры, Инженерии и дизайна легкой промышленности**
**Email: f.aliyeva@atu.edu.az**
**ТЕЛ: +994 50 533 14 51**

**Аскерова Рада Исфандияр кызы**
**Азербайджанский Технологический Университет**
**Зав. лаборатории кафедры, Инженерии и дизайна легкой промышленности**
**Email: r.asgerova@uteca.edu.az**
**ТЕЛ: +994 55 466 38 60**

**Мамедова Севиндж Ровшан кызы**
**Азербайджанский технологический университет**
**Ассистент кафедры, Инженерии и дизайна легкой промышленности**
**Email:  memmdovasevinc04@gmail.com**
**ТЕЛ: +994  51 989 07 89**

***УДК  677.52***

# ПРИМЕНЕНИЕ ДИЗАЙНА ОДЕЖДЫ В ИСКУССТВЕ МОДЫ

## РЕЗЮМЕ

Дизайн одежды в искусстве моды-это многогранная область, которая объединяет эстетические и функциональные требования. Дизайн одежды не только создает визуальную красоту, но и обеспечивает комфорт пользователя, выражая культурные и социальные послания. Индустрия моды имеет различные области применения, такие как высокая мода, массовая мода, экологическая мода и инновации. В последние годы устойчивость и экологические подходы стали занимать центральное место в процессе проектирования. Цифровые технологии и новые материалы способствуют росту инноваций в дизайне одежды. Дизайн одежды играет решающую роль в развитии и устойчивости искусства моды.

***Ключевые слова***: модные тенденции, инновации, эстетика, текстура, мотив.

***Ədəbiyyat siyahısı***


**1.** Zamanova N. “Geyim dizaynı və konstruksiya”. ADU nəşriyyatı. -Bakı, 2019.-138 səh.

**2.** Əliyeva A. Moda sənayesi və müasir dizayn yanaşmaları. Təhsil nəşriyyatı. -Bakı, 2020,-203səh

**3.** Rzaeva S. Geyim mədəniyyəti və geyim tarixi. Qanun nəşriyyatı. -Bakı, 2018,-88səh.

**4.** Əliyeva G. Davamlı moda və etik dizayn. Elm və təhsil. -Bakı, 2021,-147səh.

**5.** Heseynova A. Azərbaycan milli geyimlərinin müasir modaya inteqrasiyası. -Bakı, 2021,-92səh.

**6.** Nuriyeva T. Moda sahəsində rəqəmsal transformasiyanın sosial mədəni təsiri. AMEA.-Bakı, 2023,-75səh.